# Nazir müavini Qusarda səfərdə olub

## Firudin Qurbanov vətəndaşları qəbul edib, təhsil müəssisələrində çalışan şəhid ailə üzvləri və qazilərlə, Quba-Xaçmaz regionu üzrə təhsil müəssisələrinin rəhbərləri ilə görüşüb

Dekabrın 13-də elm və təhsil nazirinin müavini Firudin Qurbanov Qusar rayonundakı Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Quba, Qusar və Xaçmaz rayon sakinlərinin iştirak etdiyi qəbulda vətəndaşlar əsasən işlə təmin olunma, müəllimlərin yerdəyişməsi, həmçinin digər məsələlərlə bağlı müraciətlər ünvanlayıblar.

Nazir müavini vətəndaşları dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində tapşırıqlar verib.

***

Dekabrın 13-də Qusar rayonunda səfərdə olan elm və təhsil nazirinin müavini Firudin Qurbanov rayonda yerləşən təhsil müəssisələrində çalışan şəhid ailə üzvləri və qazilərlə görüşüb. Görüşdə Qusar Rayon İcra Hakimiyyətinin başçısı Sahir Məmmədxanov da iştirak edib.

Əvvəlcə şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Nazir müavini çıxışında torpaqlarımızın işğaldan azad edilməsində təhsil işçilərinin rolunun danılmaz olduğunu vurğulayıb. Firudin Qurbanov Vətən müharibəsində ümumilikdə 760 təhsil işçisinin düşmənə qarşı vuruşduğunu, onlardan 20 nəfərin şəhidlik zirvəsinə ucaldığını xatırladıb.

Firudin Qurbanov bildirib ki, Vətən müharibəsi iştirakçıları, eləcə də müharibədə iştirak etmiş təhsil işçiləri hər zaman dövlətin, həmçinin Elm və Təhsil Nazirliyinin xüsusi diqqət və qayğısı ilə əhatə olunub.

Nazir müavini çıxışının sonunda iştirakçıların hər birinə şərəfli müəllim peşəsinin icrasında uğurlar arzulayıb, Elm və Təhsil Nazirliyinin hər zaman onların təklif və müraciətlərini dinləməyə hazır olduğunu qeyd edib.

Qusar rayon İcra Hakimiyyətinin başçısı Sahir Məmmədxanov da öz növbəsində təhsil müəssisələrində çalışan şəhid ailələri və qazilərlə vaxtaşırı keçirilən görüşlər barədə məlumat verib. Görüş iştirakçılarının məktəblərdə və məktəbəqədər təhsil müəssisələrində istilik problemi ilə bağlı səsləndirdikləri fikirlərə münasibət bildirib. Qeyd edib ki, icra hakimiyyəti tərəfindən bu məsələ araşdırılacaq və müvafiq tədbirlər görüləcək.

Firudin Qurbanov problemin həlli istiqamətində işlərin sürətləndirilməsinin vacibliyini xatırladıb və bu məsələnin diqqətdə saxlanılacağını əlavə edib.

Daha sonra çıxış edən müəllimlər onlara göstərilən diqqət və qayğıya görə təşəkkür edərək fikirlərini bölüşüblər. Həmçinin qalib ölkənin müəllimi olaraq çalışmaqdan qürur duyduqlarını bildiriblər.












Daha sonra elm və təhsil nazirinin müavini Firudin Qurbanov Qusar şəhəri Tofiq İsmayılov adına 6 nömrəli tam orta məktəbdə olub.

Məktəbdə mövcud şəraitlə tanış olan nazir müavini tədris prosesini izləyib, şagird və müəllimlərlə söhbət aparıb, onların təkliflərini dinləyib.

Təhsil müəssisəsinin fəaliyyət göstərdiyi müddət ərzində əldə edilən nailiyyətlər, tədris metodları barədə məlumat verən direktor Kəmalə Sadıxova qeyd edib ki, hazırda təhsil ocağında 1122 şagird təhsil alır və 84 nəfərdən ibarət pedaqoji heyət fəaliyyət göstərir. Bildirilib ki, təhsil müəssisəsində yaradılmış icmaəsaslı məktəbəqədər təhsil qrupunda 24 uşaq təhsilə cəlb edilib.

Məktəbin kitabxanasına da baxış keçirən nazir müavini Firudin Qurbanov kitabxananın şagirdlərin oxu tələblərinə uyğun olaraq yenidən təşkil edilməsi ilə bağlı göstəriş verib.

***

Dekabrın 13-də Qusar rayonuna səfəri çərçivəsində elm və təhsil nazirinin müavini Firudin Qurbanov Quba-Xaçmaz Regional Təhsil İdarəsinin tabeliyində olan ümumi və məktəbəqədər təhsil müəssisələrinin rəhbərləri ilə görüşüb.

Heydər Əliyev Mərkəzində baş tutan görüşdə Qusar Rayon İcra Hakimiyyətinin başçısı Sahir Məmmədxanov da iştirak edib.

Tövsiyələri ilə çıxış edən nazir müavini Firudin Qurbanov bildirib ki, qarşıda duran prioritet məsələ XXI əsrin tələblərinə cavab verən bilik və bacarıqlara malik, hərtərəfli dünyagörüşünə, öz ailəsinə, cəmiyyətə, dövlətə, ailədə və ölkəmizdə qəbul edilən mənəvi-əxlaqi dəyərlərə hörmət edən, vətənin dinc quruculuğu və müdafiəsinə hazır olan yeni nəslin formalaşdırılmasıdır.

Görüş zamanı təhsil sahəsi üçün müəyyən edilmiş əsas hədəflərdən də danışılıb.

Qusar Rayon İcra Hakimiyyətinin başçısı Sahir Məmmədxanov çıxışında region üzrə tədrisin təşkili ilə bağlı təkliflərini səsləndirib və rəhbərlik etdiyi qurum tərəfindən görülən işlər barədə məlumat verib.

Görüşdə, həmçinin 2023-2024-cü tədris ilində buraxılış imtahanlarında region üzrə ən yüksək nəticə əldə etmiş ümumi təhsil müəssisələrinin rəhbərləri və Qusar rayonu üzrə ən yüksək bal toplayan şagirdlər Quba-Xaçmaz Regional Təhsil İdarəsinin fəxri fərmanı ilə təltif olunublar.

Sonda görüş iştirakçılarının təklifləri dinlənilib və sualları cavablandırılıb.

**Yetər KƏRİMLİ**
**Foto: Kənan QAFAROV**